Vüqar Bayramov

İllik Fəaliyyət Hesabatı

Mart 2023

İllik fəaliyyət hesabatım, seçicilərimlə həyata keçirdiyim görüşləri, onların çətinliklərinin həllinə dair reallaşdırdığım t ədbirləri, eləcə də ölkəmizin inkişafına yönəlik irəli sürdüyüm təklifləri əhatə edir.

Hörmətli Seçicilərim və Həmyerlilərim,

VI çağırış Milli Məclisin fəaliyyətə başlamasından 3 il ötür. Öz fəaliyyətimlə daim seçicilərimin inamını doğrultmağa, onların üzləşdiyi çətinliklərin həllinə, eləcə də təkliflərimlə ölkəmizin, rayonumuzun inkişafına töhfə verməyə daim səy göstərirəm. Həyata keçirdiyim tədbirlərə yönəlik illik hesabatlar verərək siz seçicilərimi mütəmadi olaraq məlumatlandırmağı da vəzifəmin ən vacib hissəsi hesab edirəm. Ötən bir il həm də Milli Məclisin məhsuldar fəaliyyəti ilə yaddaşlarda qaldı. VI çağırış Milli Məclisin son birillik fəaliyyət müddətində həyata keçirdiyim tədbirlərin, eləcə də Sizin müraciətlərinizin nəticəsi ilə bağlı hesabatı diqqətinizə çatdırıram.

Bildiyimiz kimi artıq rayonumuz bütövləşib və bərpa olunma mərhələsinə qədəm qoyub. Vətən müharibəsindən sonra həyata keçirilən böyük tikinti-quruculuq işlərinin nəticəsi olaraq növbəti bir ildə Füzuli şəhərinə 1000-dən çox ailənin məskunlaşması həyata keçiriləcək. Azərbaycan Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban xanım Əliyeva tərəfindən Dövlətyarlı kəndində salınacaq ağıllı kəndin təməlqoyma mərasimi baş tutmuşdur ki, bu da 30 illik işğalın acı nəticələrini yaşayan soydaşlarımızın öz ata-baba yurdlarına qayıdacaqları günün uzaqda olmadığının sübutudur. Bu tarixi qələbənin qazanılmasında canlarını fəda etmiş Şəhidlərimizə Allahdan rəhmət, Qazilərimizə isə şəfa diləyirəm.

Dərin hörmətlə,
Vüqar Bayramov, Azərbaycan Respublikası Milli Məclisinin Deputatı

İllik Fəaliyyət Hesabatı

Ötən bir il ərzində də ünvanıma daxil olan hər bir müraciətə həssalılqla yanaşaraq səlahiyyətlərim daxilində qeyd olunan çətinliklərin həllinə çalışmışam. Ünvanıma həm təmsil olunduğum dairənin seçiciləri, həm də qeyri şeçicilər tərəfindən müraciətlər daxil olmuşdur. Belə ki, ötən bir il müddətində müraciət edənlərin 58 faizi Füzuli rayonundan olan seçicilərimiz, 33 faizi rayonumuzdan kənarda məskunlaşmış həmyerlilərimiz, 9 faizi isə digər vətəndaşlarımızdır.



Müraciətlər adətən rəsmi şəkildə həm Milli Məclis aparatına, həm də Deputat ofisimizə ünvanlanır. Rəsmi olaraq, eləcə də sosial şəbəkələr və telefon vasitəsilə edilən müraciətləri də nəzərə alsaq, ümumilikdə ötən bir il ərzində ünvanıma 749 müraciət daxil olub. Bunlardan 328 müraciət Milli Məclis aparatına, 421 müraciət isə telefon və sosial şəbəkələrdə daxil olmaqla şifahi şəkildə daxil olmuşdur. Qeyd olunan müraciətlərdən 354-ü sosial, 156-sı iqtisadi problemlərlə, 239 müraciət isə maddi yardım istəyi də daxil olmaqla digər problemlərlə əlaqədar olmuşdur.

Ötən bir il ərzində həm rayon ərazisində həm də rayondan kənarda məskunlaşmış seçicilərimizlə üzbəüz və onlayn şəkildə görüşlərimiz baş tutmuşdur.

Belə ki, həm rayon ərazisində, həm də rayondan kənarda məskunlaşmış seçicilərimizlə ümümilikdə 32 görüş keçirilmişdir. Bu görüşlərdə ümumilikdə 518 seçicinin müraciəti dinlənilmişdir. Görüşlərdən 25-i səyyari şəkildə (Bakı şəhəri, Sumqayıt şəhəri 2 dəfə, Şükürbəyli kəndi, Bala Bəhmənli kəndi, Böyük Bəhmənli kəndi, Əhmədallar kəndi, Qazaxlar kəndi, Mirzənağılı kəndi, Arayatılı kəndi, Babı kəndi, Mollaməhərrəmli kəndi, 13 görüş isə deputat ofisində) 7-si isə onlayn şəkildə keçirilmişdir. Görüşlərdə iştirak edən hər bir seçicinin müraciətinə

diqqətlə yanaşaraq qeyd etdikləri problemlərinin həll olunması məqsədi ilə aidiyyəti struktrlara deputat sorğuları göndərmişəm.

Bildiyimiz kimi 2020-ci il sentyabr ayının 27-də Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən düşmənə qarşı başladılmış əks hücum əməliyyatları tarixi qələbə ilə nəticələndi və 30 ilə yaxın məcburi köçkün həyatı yaşamış soydaşlarımızın vətən həsrətinə son qoyuldu. Bu tarixi qələbənin qazanılmasında Füzuli rayonu da aktiv iştirak etmiş və bu, şərəfli yolda şəhidlər vermişdir. Füzuli rayonuna etdiyim səfərlər zamanı şəhid və qazi

ailələrimizi daim ziyarət edir, onların problem və qayğıları ilə maraqlanır, səlahiyyətlərim çərçivəsində dəstək olmağa çalışıram.

Səyyar görüşlər qrafikinə uyğun olaraq hər ay rayon ərazisində və rayondan kənarda məskunlaşmış seçicilərimizin problemlərinin öyrənilməsi məqsədi ilə görüşlərimiz baş tutur. Bu görüşlərdə ən çox olunan müraciətlər arasında özünüməşğulluq və işlə bağlı müraciətlər olmuşdur. Seçicilərin məşğulluğunun artırılması məqsədi ilə rayon ərazisinə ayrılan sosial işlərin və özünüməşğulluq proqramları üzrə kvotanın artırılması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyinə müraciət etmişəm.

İşğaldan azad edilmiş ərazilərdə geniş tikinti-quruculuq işləri çərçivəsində yüksək tonnajlı yük avtomobillərinin hərəkəti nəticəsində 8000 nəfərdən artıq əhalinin yaşadığı Zobucuq qəsəbələrinin qəsəbəarası yolları sıradan çıxmışdır. Həmin qəsəbələrdə keçirilən səyyar qəbullar zamanı sakinlər qeyd etdiyim məsələni qaldırmış və həll olunmasına köməklik göstərilməsi üçün Avtomobil Yolları Dövlət Agentliyinə müraciət etmişəm.

Həmçinin səyyar qəbullarda ünvanıma daxil olan çoxsaylı müraciətlərdən biri də işğaldan azad olunmuş ərazilərdə yerləşən kəndlərin əvvəlki ərazisində bərpa olunması ilə bağlı olmuşdur. Sakinlərin müraciətlərinin müsbət həll olunmasına köməklik olunması məqsədi ilə Baş nazir cənab Əli Əsədova və Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinə müraciət etmişəm.

Ümumilikdə son bir il ərzində ünvanıma daxil olan yazılı və şifahi müraciətlər əsasında müxtəlif dövlət qurumlarına 410 deputat sorğusu göndərmişəm ki, bununla da onlarla seçicinin səhiyyə, sosial, məşğulluq və digər sahələr üzrə problemləri öz həllini tapmışdır.

İrəli sürdüyüm təkliflər

Milli Məclisinin plenar iclasında və eləcə də təmsil olunduğum komitə iclaslarında mütəmadi təkliflərimi təqdim edir və qanunvericiliyin daha da təkmilləşməsinə dəstək olmağa çalışıram. Artıq həm iqtisadi, həm də sosial sahə üzrə bir sıra təkliflərim qəbul olunmuş və ötən müddətdə tətbiqinə başlanılmışdır. Milli Məclisdə çıxışlarım zamanı səsləndiriyim təkliflərin bir qismini təqdim edirəm.

Milli Məclisin plenar iclasında çıxışım zamanı dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsi proseduralarının sadələşdirilməsi ilə bağlı təkliflərimi təqdim etdim. "Torpaq icarəsi haqqında" qanuna edilən dəyişikliklərdə icarə götürənlərə elektron müraciət ilə yanaşı, birbaşa ərizə ilə müraciət hüququnun verilməsini təklif etdim. Belə ki, rayonlarımızda torpaq icarəyə götürənlərin bir sıra hallarda elektron müraciətdən istifadəsində çətinliklər olur. Bu baxımdan, həm elektron, həm ənənəvi formada müraciət imkanlarının saxlanması yaxşı olardı. Bu müraciətlər zamanı elektron xidmətlərdən istifadə səviyyəsinə uyğun seçim imkanları verərdi.

Eyni zamanda, müraciətlərə baxılması üçün müddətin azaldılmasına da ehtiyac var. Elektron müraciətə baxmayaraq ərizəyə 15 gün müddətində baxılıb vətəndaş cavablandırılır. Müddətinin uzun olmasının nəzərə alaraq günlərin sayının 15-dən 10-dək endirilməsi məqsədəuyğun olardı. Eyni zamanda, icarəyə verilən torpaqlarda məhsulardlıq meyarı üzrə öhdəliklərin də nəzərə alınmasına ehtiyac var. Bu torpağın keyfiyyət meyarlarının qorunması baxımdan vacibdir.

Türkiyədə təhsil alan Azərbaycanlı tələbələrə quru sərhəddən istifadə imkanının yaradılması təklif etdim. Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra qardaş ölkədə ali məktəblərdə təhsil onlayn, distant formaya keçdi. Türkiyədə 30 minə yaxın Azərbaycan vətəndaşının təhsil aldığını nəzərə alsaq həmin gənclərin ölkəmizə qayıdışına dəstək olunması vacibdir.

Milli Məclisinin keçirilən plenar iclasında 2023-cü ilin dövlət büdcəsi layihəsinin müzakirələri zamanı gələn ilin dövlət büdcəsinin 45.6 faizinin sosial sferaya yönəldilməsi və işğaldan azad olunan

ərazilərimizin bərpa və yenidənqurulması üçün daha çox vəsaitin ayrılmasının əhəmiyyətini qeyd etməklə yanaşı bir sıra təkliflərimi təqdim etdim. Elm xərclərinin artırılmasının vacibliyini bildirərək bu sektorun inkişafı üçün maliyyə təminatının gücləndirilməsinin vacibliyin bildirdim. Eyni zamanda, bələdiyyələrə ayrılan vəsaitlərin artırılması, nəticə əsaslı büdcənin tətbiq edildiyi sektorlar üzrə nəticələrinin qiymətləndirilməsi, proqnozların reallığının əsaslandırılması kimi məsələlərə xüsusi yanaşmanın əhəmiyyətini də bildirdim.



Milli Məclisinin plenar iclasında "Dövlət Özəl Tərəfdaşlığı" haqqında Qanun layihəsi birinci oxunuşda müzakirə olundu. Çıxışım zamanı layihədə bir sıra konseptual məsələlər üzrə təkliflərimi təqdim etdim və təklifləri təqdim etdim.

Ötən il “Əmək Pensiyaları”, “Sosial Müvaniətlər” və “Sosial Xidmət” haqqında qanunlara Milli Məclisin Plenar İclasında birinci oxunuş dəyişikliklər qəbul olundu. Plenar iclasda təqdim etdiyim qanun layihələrində nəzərdə tutulan dəyişikliklərə əsasən vətəndaşlarımız pensiyaya çıxan və ya müavinət almaq istəyən zaman o heç bir sənəd təqdim etməyəcək. Lazım olan bütün sənədlər və məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsi ilə məsul dövlət qurumunun özü tərəfindən əldə ediləcək. Əgər hər hansı sənəd elektronlaşdırılmayıbsa o zaman vətəndaşın razılığı ilə dövlət qurumu özü digər quruma sorğu göndərib onu əldə edəcək. Məsələn, əgər vətəndaşın pensiya yaşı tamam olubsa və o pensiyaya müraciət edibsə o zaman həmin şəxsdən heç bir sənəd tələb edilməyəcək. Hətta hansısa sənəd, məsələn, arxiv ilə bağlı hər hansı məlumat elektronlaşmayıbsa o zaman Dövlət Sosial Müdafiə Fondu özü sorğu göndərib həmin informasiyanı əldə edəcək. Bu dəyişikliklər şəffaflığın gücləndirilməsi və hesabatlılığın artırılması baxımdan əhəmiyyətlidir. Praktik olaraq, son dəyişikliklər ilə əksər xidmətlərə müraciət elektronlaşır və məmur-vətəndaş birbaşa ünsiyyəti minimumlaşdırır. Nəticədə, xidmətlərə müraciətlər üzrə elektron model daha da güclənir.

Beynəlxalq fəaliyyət

Beynəlxalq tədbirlərdə regionda dayanıqlı sülhün formalaşdırılması üçün konstruktiv mövqe çox önəmlidir. Moldovanın paytaxtı Kişineu şəhərində təşkil edilən Avronest Parlament Assambleyasın 10-cu plenar sessiyasında və eləcə də komitə iclaslarında Ermənistan nümayəndə heyəti sülhə və regionda əməkdaşlığa deyil, guya Laçın yolunun bağlanması, Qarabağda güya humanitar fəlakətin olması kimi əsassız çıxışlara fokuslanırdılar. Ermənistan deleqasiyası "Laçın dəhlizinin açılması", "Dağlıq Qarabağın blokadasının götürülməsi", "Azərbaycan ordusunun Ermənistan ərazisindən çıxarılması", "ATƏT-in Minsk qrupunun fəallaşması" kimi əsassız qətnamələr hazırlayıb təqdim etsələr də onların hamısı səsvermədə rədd edildi. Azərbaycan nümayəndə heyəti üzvlərinin həm ikitərəfli görüşlərdə göstərdikləri səylər, həm də komitə və plenar iclaslardakı çıxışlarda gətirdikləri arqumentlər nəticəsində Ermənistan nümayəndə heyətinin bütün layihələri Assambleya nümayəndələri tərəfindən rədd edildi.

Avronest Parlament Assambleyasın 10-cu plenar sessiyasında çıxışım zamanı enerji təhlükəsizliyi, iqtisadi imkanlar, həmçinin Avropa İttifaqı və Şərqi Tərəfdaşlıq ölkələri arasında nəqliyyat və yükdaşımaların inkişafı məsələlərinə toxundum.

Vətən müharibəsindəki Zəfərdən sonra bir sıra paytaxtlarda Azərbaycana qarşı təhdidlərin sayı artmaqdadır. Doğrudur, Senati əlehimizə qətnamə qəbul edən Fransa savaş zamanı da ikili standartlardan çıxış edərək işğalçı Ermənistanı dəstəkləyir və əslində o zaman da beynəlxalq hüquq prinsiplərinə məhəl qoymurdu. 2022-ci ilin sentyabrında Parisə səfərimi zamanı Senatı da ziyarət etdik. Fransada keçirilən görüşlərdə Azərbaycan həqiqətlərini təqdim etməyə çalışdıq.

Amerika Birləşmiş Ştatlarına səfər çərçivəsində Arkansas ştatında və Vaşinqton şəhərində qanunverici orqan üzvləri ilə görüşlər keçirdik. ABŞ-da müzakirələrimiz və fikir mübadilələrimiz çox səmərəli keçdi.

Vaşinqtonda görüşlərimiz qanunverici orqanlarda Senatda və Konqresdə davam etdi. Senat və Nümayəndələr Palatasında yeni seçilmiş millət vəkilləri ilə görüşlərdə Azərbaycan və ABŞ arasındakı münasibətlərin inkişafı, Vətən Savaşıdan sonra regionda formalaşan yeni düzən, Azərbaycanın Qərbin enerji təhlükəsizliyinin formalaşmasındakı rolu, Rusiya-Ukrayna müharibəsinin regional təsirləri və s.

vacib məsələləri müzakirə etdik. Qarşılıqlı fikir mübadilələri Azərbaycanın mövqeyinin təqdim edilməsi və əməkdaşlığın gücləndirilməsi baxımdan çox faydalı oldu. Görüşlərdə ABŞ Konqres üzvlərin maraqlandırılan məsələlər ilə bağlı fikirlərimizi bölüşdük, qarşılıqlı münasibətlərin inkişafı yollarını müzakirə etdik.

Beynəlxalq Astronavtika Federasiyasının 73-cü Konqresi çərçivəsində Fransanın paytaxtı Paris şəhərində keçirilən Federasiyaya üzv ölkələrin nazirləri və parlament üzvlərinin 12-ci beynəlxalq iclasında çıxışım zamanı Azərbaycan kosmos sənayesinin regional təhükəsizliyinin formalaşmasına töhvlərinə toxunaraq bu sahədəki təcrübəni konqres iştirakçıları ilə bölüşdüm.

Bayramov
r Economic Policy, Industries and
rliament of Azerbaijan
v.iac2022.org
cnes
22
SORTIE

KİV-də aktivlik

Təmsil etdiyim Füzuli rayonunun, ümumilikdə ölkəmizin iqtisadi, sosial inkişafına yönəlik təklif və tövsiyələrimin cəmiyyətimizə çatdırılmasında sosial media mühüm rol oynayır. Seçicilərimlə ünsiyyətimdə isə sosial media əhəmiyyətli yerə sahibdir. Kütləvi informasiya vasitələrində (KİV) fikir və təkliflərimin istinad və paylaşımı baxımından məlumat göstəricilərinə gəldikdə, statistika bu şəkildədir.



Qeyd etmək istərdim ki, əksər təkliflərimizin konseptual əhəmiyyətini nəzərə alaraq eyni təkliflər çoxlu sayda media orqanlarında yayımlanıb.

Hörmətli seçicilərim, nəzərinizə çatdırım ki, fəaliyyətimə yönəlik rüblük və illik hesabatlarımla mütəmadi olaraq sizi məlumatlandıracağam. Müraciətlərinizlə bağlı məlumat əldə etmək üçün əlaqə:

Deputat köməkçisi: Eltun Ağakişiyev
Email: 84sayli_sd@meclis.gov.az
Tel: +994502268002